

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 97 (23.008)

24 may 2018-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Qüruru və əzəməti bir-birini tamamlayan "Mənim Naxçıvanım" adlı fotosərgi açılıb

*Mayın 22-də Bakı şəhərindəki "Gallery-1969"da tanınmış naxçıvanlı gənc fotoqraf Hüseyn Bağırovun "My Nakhchivan" ("Mənim Naxçıvanım") adlı fotosərgisi açılıb.*





Respublikanın tanınmış elm, mədəniyyət və incəsənət xadimlərinin, habelə Milli Məclisin deputatlarının qatıldığı fotosərgidə əvvəlcə qonaqlar Naxçıvana həsr edilmiş videoçarxa baxıblar.

Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərov çıxış edərək sərginin əhəmiyyətindən söz açıb. Sərginin Naxçıvana ithaf edilməsinin önəmini qeyd edən Bəxtiyar Əsgərov ekspozisiyada yer alan fotoların məna və məzmun baxımından dolğunluğunu vurğulayıb. Qeyd edib ki, fotosərgi Naxçıvanın əsrarəngiz təbiətini tanıtmaq, təbliğ etmək baxımından xüsusi əhəmiyyət daşıyır.

"Gənc fotoqrafın bu sərgisində Naxçıvanın turizm baxımından nə qədər əhəmiyyət daşıdığının şahidi olmaqla yanaşı, müstəqil dövlətimizin qürur və iftixar mənbəyi olan ulu diyarımızın təbii coğrafi imkanlarını, maddi-mədəni irsini, onun mənsub olduğu dəyərləri bilavasitə görmək mümkündür. Beynəlxalq auditoriyanın diqqətini uzun müddət blokada şəraitində yaşamış, buna baxmayaraq, inkişaf etmiş Naxçıvana cəlb etmək istiqamətində bu sərgini uğurlu hesab etmək olar. Ulu öndər Heydər Əliyev ***"Mən istəyirəm ki, Naxçıvanla bağlı düşündüyüm gələcək planlarım yerinə yetsin"*** deyərdi. Əsası ümummilli lider tərəfindən qoyulan, hazırda Prezident İlham Əliyev tərəfindən davam etdirilən məqsədyönlü siyasətin nəticəsidir ki, son illər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun yorulmaz fəaliyyəti sayəsində Naxçıvan bütün sahələrdə – sosial-iqtisadi, elmi-mədəni, quruculuq-abadlıq, sənaye və kənd təsərrüfatı, nəqliyyat və rabitə, infrastruktur və turizm, ən nəhayət, əhalinin həyat şəraitinin yüksəldilməsi sahəsində böyük irəliləyişlər əldə edib, təbiətin mühafizəsi sahəsində yeniliklərə imza atıb, bir sözlə, müstəqil Azərbaycanın ən qabaqcıl inkişaf etmiş nümunəvi diyarına çevrilib. Qazanılan nailiyyətlər muxtar respublikanın potensialını xeyli artıraraq əlverişli investisiya, turizm və biznes mühitinin formalaşmasına xüsusi imkanlar yaradıb. Naxçıvanda icra edilən dövlət proqramlarının və həyata keçirilən məqsədyönlü siyasətin nəticəsi bu gün öz bəhrəsini verməkdədir. Ulu öndərin dövründə "Xalq-Heydər, Heydər-Xalq" birliyi bu gün iqtidar-xalq birliyini ortaya çıxarıb, dövlətimizin uğurlarının rəhninə zəmin yaradıb", – deyə Bəxtiyar Əsgərov söyləyib.

Nümayəndəliyin rəhbəri əlavə edib ki, Naxçıvanın ecazkar mənzərələrinin nümayiş etdirildiyi sərgidə yer alan fotolar müəllifin peşəkarlığını və sənət sevgisini bir daha sübut edir. Sərginin təşkilində əməyi olan hər kəsə təşəkkür edən B.Əsgərov gənc fotoqrafa uğurlar arzulayıb.

Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına son səfərini xatırladan Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli bildirib ki, bu səfər doğma diyarın sosial-iqtisadi inkişafını, mədəni quruculuq sahəsindəki uğurlarını bir daha ictimaiyyətə təqdim edib. Dövlətimizin başçısı tərəfindən aparılan məqsədyönlü siyasətin paytaxt və regionlarımızın inkişafına yönəldiyini vurğulayan akademik deyib: "Naxçıvan Muxtar Respublikası da bu inkişaf strategiyasının əhatəsində olan regionlarımızdandır. Bu gün Naxçıvanda həyatın bütün sahələrində böyük inkişaf müşahidə olunur. Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan özünün yeni intibah dövrünü yaşayır. Hüseyn Bağırovun fotoları Naxçıvanın bütün gözəlliklərini, özünəməxsus təbiətini və inkişafını bir daha nümayiş etdirir. Bədii fotoqrafiya aspektindən baxdıqda bu şəkillərdə Naxçıvanın hazırkı vəziyyətini canlı olaraq görmək mümkündür. Sərgilənən 70-dək foto Naxçıvanın bütün ərazisini əhatə etməklə, doğma diyarın təbiətinin gözəlliklərini də insanlara çatdırır. Bu gözəlliklər fotoqraf tərəfindən kəşf edilmiş gözəlliklərdir. Naxçıvanın təbiətində qürur, əzəmət və iftixar bir-birini tamamlayır. Fotoqrafın təbiətin kompozisiyasına bu baxımdan yanaşmağı təqdirəlayiqdir".

Akademik diqqətə çatdırıb ki, ümummilli lider Heydər Əliyevin respublikanın siyasi rəhbərliyinə qayıdışından sonra bölgələrimizdə, o cümlədən Naxçıvanda həyatın bütün sahələrində dinamik inkişaf müşahidə olunub, dövlətçiliyimizin milli dayaqları sarsılmaz təməllər üzərində qurulub.

Qeyd olunub ki, müasir, müstəqil Azərbaycanın banisi ulu öndər Heydər Əliyevin siyasi xəttinin davam etdirilməsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə Naxçıvanda abadlıq-quruculuq işlərinin əhatə dairəsini genişləndirib, Naxçıvan daha müasir görkəmə qovuşub. İstifadəyə verilən yeni yollar, səhiyyə, təhsil və mədəniyyət müəssisələri, sənaye kompleksləri qədim diyarın inkişafında yeni mərhələnin əsasını qoyub.

Sonra qonaqlar üç gün davam edəcək fotosərgiyə baxıblar. Sərgi maraqla qarşılanıb.

**Ceyhun Alışlı**
***AZƏRTAC***

## Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı tədbirlər keçirilib



***Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatı tərəfindən təşkil olunan tədbirdə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayev "Müasir, müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin varisidir" mövzusunda çıxış edib. Çıxışda tariximizin parlaq səhifələrindən birini təşkil edən Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından, süquta uğraması səbəblərindən, müstəqilliyimizin bərpası və qorunub saxlanılması istiqamətində yaxın keçmişimizdə görülən işlərdən bəhs edilib.***

Qeyd olunub ki, Azərbaycanda müstəqil dövlət quruculuğu prosesinin kökləri qədim, müstəqilliyə gedən yol isə çox çətin və keşməkeşli olub. Təcrübə göstərir ki, bu istəyə çatmaq üçün, ilk növbədə, xalqın məqsəd birliyi, daha sonra isə münbit ictimai-siyasi şərait mövcud olmalı idi. Nəhayət, ötən əsrin əvvəllərində belə bir imkan yarandı və 1918-ci il mayın 28-də Tiflisdə Azərbaycanın dövlət müstəqilliyi haqqında İstiqlal Bəyannaməsi qəbul olundu. 24 səslə qəbul edilən qərar və 6 bənddən ibarət İstiqlal Bəyannaməsi müstəqil Azərbaycan dövlətinin varlığını bütün dünyaya bəyan etdi. Beləliklə, Azərbaycan dövlətçiliyi tarixində ilk Konstitusiya aktı qəbul olundu. Bu hüquqi və siyasi sənəddə müstəqil Azərbaycan dövlətinin yarandığı bəyan edildi, onun hakimiyyətinin şamil olunduğu ərazinin hüdudları müəyyənləşdirildi, həmçinin dövlətin əsas fəaliyyət prinsipləri öz əksini tapdı. İstiqlal Bəyannaməsində demokratik dövlətə məxsus atributların dövlət fəaliyyətinin əsası kimi bəyan edilməsi Azərbaycan xalqının suveren, demokratik, hüquqi dövlət yaratmaq əzmində olduğunu bütün bəşəriyyətə nümayiş etdirdi. Bəyannamənin qəbulu ilə Azərbaycan siyasi-hüquqi və mənəvi-psixoloji statusa qədəm qoydu.

"Tarixi təcrübələr göstərir ki, müstəqilliyi qoruyub saxlamaq, inkişaf etdirmək onu əldə etmək qədər çətindir", – deyən təşkilat sədri qeyd edib ki, 1918-ci ildə yaranan Azərbaycan Xalq Cümhuriyyəti xarici və daxili siyasət amilləri ilə izah olunan mürəkkəb bir şəraitdə fəaliyyət göstərib. Gənc dövlət həm region ölkələri, həm də Azərbaycanın daxili siyasi, etnik qüvvələri tərəfindən birmənalı qarşılanmayıb. Beynəlxalq aləmdə baş verən dəyişikliklər nəticəsində müsəlman Şərqindəki ilk demokratik dövlət süquta uğrayıb.

Çıxışda ötən əsrin sonlarında müstəqilliyin yenidən bərpa olunması istiqamətində respublikamızda aparılan azadlıq uğrunda mücadilə zamanı baş vermiş faciəli hadisələr, rastlaşdığımız maneələr və ciddi təhlükələr də xatırladılıb. Ümummilli lider Heydər Əliyevin böyük çətinliklər bahasına müstəqilliyimizin qorunması, möhkəmləndirilməsi, sarsılmaz və əbədi olması istiqamətində gördüyü misilsiz xidmətlərdən ətraflı bəhs edilib. Bugünkü nailiyyətlərin əsas səbəbinin ulu öndərin yoluna dərin sədaqət olduğu nəzərə çatdırılıb, dövlət başçısı, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin xalqımızın tərəqqisi naminə gördüyü işlərin əhəmiyyəti, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin muxtar respublikamızın sosial-iqtisadi inkişafındakı xidmətləri vurğulanıb.

Tədbirdə Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatı İdarə Heyətinin üzvü Vaqif Cabbarov, partiya fəalları Musa Şiraliyev və Həcər Əsgərova çıxış ediblər.



Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatının keçirdiyi tədbirdə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Arif Qasımov çıxış edərək bildirib ki, 1918-ci il 28 mayda yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti çox çətin bir şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, bu dövrdə Azərbaycan dövlətçiliyi üçün vacib olan bir sıra məsələlər həll edilib, siyasi və sosial sahədə islahatlar həyata keçirilib.

Qeyd olunub ki, Azərbaycan Xalq Cümhuriyyəti nəinki ölkə daxilində bir çox mühüm işlər həyata keçirib, hətta beynəlxalq aləmdə tanınmaq, ölkənin siyasi maraqlarını beynəlxalq səviyyədə müdafiə etmək üçün ciddi addımlar atıb. Məhz bunun nəticəsi idi ki, Azərbaycan Xalq Cümhuriyyəti 20-dən çox dövlət tərəfindən de-fakto tanınıb və bu ölkələrin Bakıda konsulluq və nümayəndəlikləri açılıb.

Vurğulanıb ki, Xalq Cümhuriyyəti dövründə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan çox gərgin bir vəziyyətdə olsa da, naxçıvanlıların mübarizliyi nəticəsində bu ərazi ölkəmizin ayrılmaz tərkib hissəsi kimi qorunub saxlanılıb.

Diqqətə çatdırılıb ki, bu gün Xalq Cümhuriyyətinin varisi olan Azərbaycan Respublikasının müstəqilliyinin əbədiliyinin təmin edilməsi ümummilli liderimiz Heydər Əliyevin adı ilə sıx bağlıdır. Çünki çox çətin bir dövrdə O, Azərbaycanı bəlalardan, parçalanmaqdan xilas etdi. Əgər ulu öndərimizin zəngin və müdrik dövlətçilik təcrübəsi olmasaydı, bu gün müstəqil Azərbaycan yaşaya, dünya birliyi dövlətləri sırasında öz layiqli yerini tuta bilməzdi.

Bu gün ölkəmizdə əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş demokratik hüquqi, dünyəvi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesi onun layiqli davamçısı Prezident cənab İlham Əliyev tərəfindən inamla və uğurla davam etdirilir.

Tədbirdə Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatı Qadınlar Şurasının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Vüsalə Əliyeva, partiyanın fəal üzvləri Kəmalə Əliyeva, Nəsimi Rzayev, Fatma Abbasova və Polad Rzazadə çıxış edərək bildiriblər ki, Azərbaycan Xalq Cümhuriyyəti qısa müddət mövcud olmasına baxmayaraq, tariximizin xüsusi səhifəsini təşkil edir. Belə ki, müsəlman Şərqində ilk parlamentli demokratik respublika olan cümhuriyyət çox mühüm dövlətçilik tədbirləri həyata keçirib.

Tədbirin sonunda Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyinə həsr edilən film nümayiş olunub.

**Xəbərlər şöbəsi**

# Ərazisi blokadada, özü irəlidə olan Naxçıvan

## *Naxçıvan Muxtar Respublikasında son 15 ildə ÜDM istehsalı 10 dəfə artıb*



*Məlum olduğu kimi, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə sürətlə inkişaf etməyə başladı. Bu inkişaf bölgələrin simasını dəyişdi, potensialını hərəkətə gətirdi. Ölkəmizin digər regionlarında olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da nəhəng sosial-iqtisadi layihələr həyata keçirildi. Bunun nəticəsidir ki, hazırda muxtar respublikada istər sənaye, istərsə də kənd təsərrüfatı məhsullarının istehsalı artır, əhalinin sosial müdafiəsi güclənir.*

Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin Naxçıvana göstərdiyi misilsiz qayğını davam etdirir. Dövlət başçısının Naxçıvan Muxtar Respublikasına cari ayın 16-dakı səfəri də bu qayğının təzahürüdür. Prezident səfər zamanı "Şərur şəhər və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin birinci mərhələsinin açılış mərasimində iştirak etdi. Bildirildi ki, tikintisinə 2012-ci ildə başlanmış layihəyə əsasən Şərur şəhəri, Mahmudkənd kəndi və Zeyvə kəndinin bir hissəsində su şəbəkəsi, Şərur şəhərində kanalizasiya şəbəkəsi qurulub. Layihə çərçivəsində rayon əhalisinin su təminatını yaxşılaşdırmaq məqsədilə Arpaçay subölücüsündə gölün dibindən 6 metr dərinlikdə qalereya tikilib. Qalereyanın su sərfi saniyədə 1150 litrdir. Çaydan çəkilən kəmər vasitəsilə gələn su dezinfeksiya edilərək su anbarlarına yığılır və öz axını ilə fasiləsiz ötürülür. Ümumiyyətlə, layihənin bölgə üçün böyük əhəmiyyəti var. Belə ki, birinci mərhələdə işlər başa çatdıqdan sonra adları çəkilən ərazilərdə 13,5 min nəfər 24 saat ərzində Dünya Səhiyyə Təşkilatının standartlarına cavab verən içməli su ilə təmin edilir.

Açılış mərasimində Prezident İlham Əliyev demişdir: ***"Naxçıvan Muxtar Respublikasında sosial sahənin inkişafı üçün çox böyük işlər görülübdür, xəstəxanalar, məktəblər tikilibdir, içməli su və digər infrastruktur layihələri icra edilir. Əlbəttə ki, bu məsələlər insanların rahat yaşaması üçün əsas şərtdir. İçməli su insan sağlamlığı üçün əsas məsələdir və biz bu məsələni ölkə üzrə hər yerdə həll edirik".***

Naxçıvanlıların ali təhsil alması üçün muxtar respublikada bir sıra təhsil ocaqları var. Onlardan biri Naxçıvan Müəllimlər İnstitutudur. Dövlət başçısı səfər zamanı institutun yeni binasının istifadəyə verilmə mərasimində də iştirak etdi. Bildirildi ki, 2003-cü il avqustun 26-da fəaliyyətə başlayan bu təhsil ocağı muxtar respublikanın həyatında mühüm rol oynayır. Ötən dövr ərzində institut ixtisaslı müəllim kadrları, lazımi tədris şəraiti, maddi-texniki baza ilə təmin olunub, yeni ixtisaslar açılıb.

Bu ali məktəbdə, ümumilikdə, 23 auditoriya, 4 kompüter otağı, 16 elektron lövhəli auditoriya, kitabxana və oxu zalı, elektron oxu zalları, rəngkarlıq və heykəltəraşlıq emalatxanaları var. Təsviri incəsənət, coğrafiya, musiqi, hərbi, tibbi, Azərbaycan dili, ali riyaziyyat və informatika otaqları tələbələrin biliklərinin artırılması üçün bütün zəruri avadanlıqla təchiz edilib. Təhsil ocağı, həmçinin psixologiya laboratoriyası, idman zalı, 132 və 20 yerlik iclas zalına malikdir.

İlham Əliyev prezident kimi Naxçıvana 14 dəfə səfər edib. Bu səfərlər zamanı muxtar respublikada 135-dən çox sosial-iqtisadi obyektlərin açılışında iştirak edib. Dövlət başçısının qayğısı sayəsində Naxçıvanda qazlaşdırma tam həyata keçirilib. 1990-cı illərin əvvəllərində qaranlığa qərq olan Naxçıvan bu gün elektrik enerjisi ixrac edir. Muxtar respublikada son 15 ildə ümumi daxili məhsul istehsalı 10 dəfəyədək artıb.

Naxçıvan Muxtar Respublikası Türkiyə, İran və Ermənistanla həmsərhəddir. Sərhədlərimizin etibarlı mühafizəsini həyata keçirmək üçün Naxçıvanda da çox işlər görülüb. Səfər zamanı Prezident İlham Əliyev Dövlət Sərhəd Xidmətinin Naxçıvan şəhər Qaraçuq ərazi dairəsindəki sərhəd dəstəsində yaradılan şəraitlə tanış oldu. Dövlət başçısına məlumat verildi ki, sərhəd dəstəsinin qərargah və yataqxana binası üç mərtəbədən ibarətdir. Burada rabitə, xidmət, silah, yataq otaqları, mətbəx, əsgər və zabit yeməkxanası yaradılıb. Binanın birinci mərtəbəsində hərbçilər üçün 16 yerlik yataqxana, 48 yerlik əsgər və 4 yerlik zabit yataqxanaları yerləşir. Eyni zamanda burada kinoloji xidmət üçün 7 yerlik və atların saxlanması üçün 12 yerlik tövlə binası tikilib. Bir sözlə, sərhədlərimizin etibarlı qorunması üçün sərhəd xidmətçilərinə hər cür şərait yaradılıb.

Bu da təbiidir. Ermənilər həmişə Naxçıvana da ərazi iddiaları irəli sürüb. Dağlıq Qarabağ münaqişəsi başlayanda Naxçıvanda da şiddətli döyüşlər gedirdi. Blokada şəraitində olan Naxçıvan bütün çətinliklərə baxmayaraq, cəsarətlə mübarizə aparıb. Bunun nəticəsidir ki, düşmən Naxçıvanı işğal etmək niyyətini həyata keçirə bilməyib. Sözsüz ki, bu sahədə ulu öndər Heydər Əliyevin tarixi xidmətləri var.

Məlum olduğu kimi, Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində Naxçıvanda Əlahiddə Ümumqoşun Ordusu yaradılıb. Bu ordu müasir döyüş silahları ilə təchiz edilib. Məsələn, çəkisi cəmi 28 kiloqram olan "ORBİTER-3B" pilotsuz uçuş aparatı 5500 metr maksimal hündürlükdə canlı yayımda gecə və gündüz şəraitində düşmən ərazisində havadan kəşfiyyat aparmaq, aşkar edilmiş hədəflərin koordinatlarını müəyyən etmək gücündədir. Sürəti saatda 93 kilometr olan aparatın maksimal uçuş məsafəsi 120 kilometr, uçuş müddəti 7 saatdır. Düşmən tərəfi belə hərbi vasitələrə malik deyil. Buna görə də biz bu texniki üstünlüyümüzdən istifadə edərək daim düşmənin hərəkətlərini nəzarətdə saxlayırıq, təxribata əl atdıqda dərhal lazımi tədbirlər görürük. Bir sözlə, Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu müasir aviasiyaya, raket artilleriyaya, tank və zirehli texnikaya və digər atıcı silahlara malikdir. Bu üstünlük Naxçıvana özünü qorumaq və lazım gəldikdə düşmənə sarsıdıcı zərbə endirmək imkanı verir.

**Rüstəm KAMAL**
***"Azərbaycan" qəzeti,***
***19 may 2018-ci il***

# Operativ vergi nəzarəti tədbirləri gücləndirilir



2018-ci ilin 4 ayı ərzində Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi və onun yerli vergi orqanları tərəfindən muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələrdə əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması, nəzarət-kassa aparatlarından istifadə, vergi orqanlarında uçotda durmadan fəaliyyət göstərən ödəyicilərin aşkar edilməsi, xarici valyuta sərvətlərinin ödəniş vasitəsi olaraq qəbul edilməsi, işəgötürənlə işçilər arasında əmək müqavilələrinin bağlanmasına nəzarət və sair bu kimi operativ vergi nəzarətinin əhatə funksiyalarına daxil olan məsələlər üzrə 31 vergiödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilib və müvafiq tədbirlər görülüb.

Həyata keçirilən operativ vergi nəzarəti tədbirləri zamanı 3 vergiödəyicisi tərəfindən əhali ilə nağd hesablaşmaların aparılması qaydalarının pozulması, 2 vergiödəyicisi tərəfindən xarici valyuta məbləğinin ödəniş vasitəsi kimi qəbul edilməsi və valyuta sərvətlərinin ticarət, iaşə və xidmət müəssisələrində qanunvericiliklə müəyyən edilmiş qaydalar pozulmaqla alınıb-satılması və ya dəyişdirilməsi faktları aşkarlanıb.

Operativ vergi nəzarəti tədbirləri zamanı 12 vergiödəyicisinin "Fərqlənmə nişanı" olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşınması, 2 vergiödəyicisində isə aksiz markası olmadan alkoqollu içki və tütün məmulatlarının satışı, 1 şəxsdə isə malların Vergi Məcəlləsi ilə tənzimlənən qaimə-faktura və ya elektron qaimə-faktura əsasında alınmaması müəyyən edilib.

Əlavə olaraq keçirilən nəzarət tədbirləri zamanı 11 şəxsin vergi orqanlarında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olduqları aşkarlanıb və həmin şəxslər barəsində qanunamüvafiq tədbirlər görülüb.

Aparılan operativ vergi nəzarəti işləri zamanı tərtib edilmiş 2150 manat inzibati cərimə və maliyyə sanksiyası məbləğlərinin büdcəyə ödənilməsi təmin edilib.

2018-ci ilin qeyd olunan dövrlərində vergidənyayınma və dövriyyənin gizlədilməsi hallarına qarşı mübarizə məqsədilə 7 vergiödəyicisində xronometraj metodu ilə müşahidələr aparılıb və müşahidələr zamanı müşahidəyədək olan dövriyyələr ilə müqayisədə 9 min 837 manat dövriyyə artımına nail olunub. Bu da hər bir obyekt üzrə orta hesabla ay ərzində 28 manata yaxın vergi məbləğinin əlavə olaraq büdcəyə ödənilməsi deməkdir.

Operativ vergi nəzarəti tədbirləri mütəmadi olaraq cari ilin qarşıdakı dövrlərində də davam etdiriləcək.

Qeyd olunan dövr ərzində Vergilər Nazirliyi tərəfindən müvafiq icra hakimiyyəti orqanları ilə birgə tədbirlər planına əsasən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin yerinə yetirilməsinə cəlb edilməsinin Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi bağlamaqla rəsmiləşdirilməsi, əməkhaqlarının real göstərilməsi ilə bağlı tikinti, ticarət, iaşə və digər xidmət obyektlərində araşdırmaların aparılması mütəmadi olaraq davam etdirilib. Belə ki, 2018-ci ilin 4 ayı ərzində 44 işəgötürəndə aparılmış araşdırmalar zamanı 36 yeni əmək müqaviləsinin bağlanması və 219 əmək müqaviləsində isə əməkhaqlarının real əməkhaqları səviyyəsində göstərilməsinə nail olunub.

***Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin mətbuat xidməti***

"Naxçıvan" Universitetində "Azərbaycan dövlətçilik tarixində Azərbaycan Xalq Cümhuriyyətinin yeri və rolu" mövzusunda keçirilən konfransı giriş sözü ilə ali təhsil ocağının tədris işləri üzrə prorektoru, iqtisad üzrə fəlsəfə doktoru Hüseyn Bağırsoylu açaraq bildirib ki, müstəqillik xalqımızın böyük tarixi nailiyyəti və milli sərvətidir.

# Konfrans keçirilib

XX əsrdə xalqımız bu böyük sərvəti – dövlət müstəqilliyini iki dəfə qazanıb: birinci dəfə 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti, ikinci dəfə isə 1991-ci ildə müstəqil Azərbaycan Respublikası kimi. Tarixi ictimai-siyasi səbəblər üzündən cəmi 23 ay yaşamış Xalq Cümhuriyyətini qoruyub saxlamaq həmin dövrdə mümkün olmayıb. Əsrin sonunda yenidən öz dövlət müstəqilliyini elan edən Azərbaycan özünü 1918-1920-ci illərdə mövcud olmuş cümhuriyyətin varisi hesab edərək müstəqil dövlət kimi tarixdə özünə yer qazanıb.

Konfransda Ümumi tarix kafedrasının müəllimləri Elçin Zamanovun, İlhami Əliyevin, Tarix fənninin tədrisi metodikası və metodologiyası ixtisası üzrə I kurs magistrantı Qorxmaz Hacızadənin çıxışları dinlənilib. Çıxışlarda qeyd olunub ki, xalqımız yeni tarixi şəraitdə öz dövlət müstəqilliyini bərpa etdikdən sonra ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi altında Xalq Cümhuriyyətinin ənənələrini əsas tutaraq müstəqil Azərbaycan dövlətini yaradıb. Lakin Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətindən fərqli olaraq, mürəkkəb vəziyyətdə öz müstəqilliyini qorumağı və möhkəmləndirməyi bacarıb, dövlətçiliyin qorunması üçün qətiyyətli tədbirlər görülüb. Qürurverici haldır ki, bu gün müstəqil Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin siyasi varisi kimi dünya dövlətləri sırasında öz layiqli yerini tutur.

Konfransda vurğulanıb ki, bu gün ümummilli liderimizin yolunu ölkə başçısı İlham Əliyev layiqincə davam etdirir. Ölkəmizdə aparılan iqtisadi və sosial islahatlar muxtar respublikamızda da öz bəhrəsini verməkdədir. Muxtar respublikada atılan məqsədyönlü addımlar nəticəsində doğma diyarımız əsl inkişaf dövrünü yaşayır. Naxçıvan Muxtar Respublikasının son illərdəki inkişaf tempi Heydər Əliyev ideyalarının gerçəkləşdiyini, onun arzularının həqiqətə çevrildiyini bir daha sübut edir.

Sonda tarixi günü əks etdirən slayd nümayiş olunub.

**Nuray ƏSGƏROVA**

# Hamiliyə verilmiş ixtisaslarda təhsil alan tələbələrlə görüş



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamına uyğun olaraq mayın 23-də Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə və hüquq fakültəsinin Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələri Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsində olublar.

Tələbələr əvvəlcə buradakı kitabxana ilə tanış olub, məhkəməyə daxil olan sənədlərin, cinayət, mülki, inzibati və sair işlərin, materialların qeydiyyatı, rəsmiləşdirilməsi, formalaşdırılması, göndərilməsi və vətəndaşların müraciətlərinə baxılması qaydaları haqqında onlara ətraflı məlumat verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Qasım Əliyev tələbələrlə görüş zamanı sərəncamdan irəli gələn vəzifələrin yerinə yetirilməsinin əhəmiyyətindən danışıb. Bildirib ki, peşəkar, yüksək səriştəli kadrların yetişdirilməsi ölkəmizdə aparılan demokratik-hüquqi dövlət quruculuğunun tərkib hissəsidir. Gələcəyin etibarlı təminatı savadlı, bacarıqlı, yüksək mənəviyyata malik olan intellektual kadrların hazırlanmasından, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında aparılan hüquqi islahatların tərkib hissəsi kimi hüquq-mühafizə orqanlarında çalışacaq yüksək peşəkarlığa malik, layiqli, ədalətli və humanist kadrların formalaşdırılması böyük əhəmiyyətə malikdir. Ona görə də bu sərəncam tələbələrin yüksəkixtisaslı, bacarıqlı mütəxəssis kimi yetişməsi üçün atılan mühüm addımdır.

Tələbələrin nəzəri biliklərlə yanaşı, praktik bacarıqlara yiyələnməsi baxımından sərəncamın əhəmiyyətini vurğulayan Qasım Əliyev qeyd edib ki, bu istiqamətdə nəzərdə tutulan vəzifələrin uğurlu şəkildə icra olunmasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsində görüləcək işlərə dair tədbirlər planı təsdiq olunub. Planda Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələr üçün seminar-məşğələlərin keçirilməsi, onların məhkəmə proseslərində iştirakının təmin olunması nəzərdə tutulub. Bundan başqa, gələcək hüquqşünasların Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsində təcrübə keçmələri üçün lazımi şərait yaradılması da həmin planda öz əksini tapıb və bunun nəticəsi olaraq tələbələr ötən illərdə Ali Məhkəmədə təcrübə keçiblər.

Diqqətə çatdırılıb ki, ötən dövrdə bu istiqamətdə xeyli iş görülüb və həyata keçirilən tədbirlər hazırda da davam etdirilir.

Sonra tələbələrin sualları cavablandırılıb.

**✍ Nail ƏSGƏROV**

# “Naxçıvan – bəşəriyyətin beşiyi” IV Beynəlxalq Rəsm Festivalının açılışı olmuşdur





*Mayın 23-də Naxçıvan şəhərindəki Əcəmi Seyrəngahı Mədəniyyət və İstirahət Parkında ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş “Naxçıvan – bəşəriyyətin beşiyi” IV Beynəlxalq Rəsm Festivalının açılış mərasimi keçirilmişdir.*

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov çıxış edərək bildirmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 16 aprel tarixli Sərəncamı ilə təsdiq edilən “Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsinə dair Tədbirlər Planı”na uyğun olaraq muxtar respublikada silsilə tədbirlər keçirilir. “Naxçıvan – bəşəriyyətin beşiyi” IV Beynəlxalq Rəsm Festivalı da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 16 aprel tarixli Sərəncamı ilə təsdiq edilən həmin Tədbirlər Planına uyğun olaraq keçirilir.

Qeyd olunmuşdur ki, Azərbaycanda mədəniyyətin, incəsənətin, o cümlədən təsviri sənətin inkişafı ümummilli lider Heydər Əliyevin adı və dövlətçilik fəaliyyəti ilə bağlıdır. Ulu öndərin ölkəmizə rəhbərliyi dövründə mədəniyyətin və təsviri sənətin inkişafına xüsusi qayğı göstərilmiş, çoxsaylı mədəniyyət mərkəzləri, sərgi salonları yaradılmış, rəssamlıq sahəsində yaradıcılıq prosesi geniş vüsət almışdır.

Diqqətə çatdırılmışdır ki, bu gün ölkəmizdə, eləcə də Naxçıvan Muxtar Respublikasında ümummilli liderimiz Heydər Əliyevin mədəniyyət və incəsənət sahəsində əsasını qoyduğu ənənələr davam etdirilir, yaradıcı şəxslərə dəstək verilir, zəngin keçmişə malik olan rəssamlıq məktəbinin qorunub saxlanılması və inkişafı üçün tədbirlər görülür. Muxtar respublikada istedadlı gənc rəssamların üzə çıxarılması və onların bu sənəti daha dərindən öyrənmələri diqqətdə saxlanılmış, Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində Təsviri incəsənət və rəsmxətt, Naxçıvan Müəllimlər İnstitutunda Təsviri incəsənət müəllimliyi ixtisasları açılmış, məktəbdənkənar təhsil müəssisələrində isə rəsm dərnəklərinin fəaliyyətləri üçün zəruri şərait yaradılmışdır. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş “Naxçıvan – bəşəriyyətin beşiyi” IV Beynəlxalq Rəsm Festivalının yüksək səviyyədə təşkil olunması da muxtar respublikada təsviri incəsənətə qayğının ifadəsidir. Rəsm festivalında 35-i 12 xarici ölkədən olmaqla, ümumilikdə, 65-dən çox fırça ustasının iştirak etməsi bu beynəlxalq tədbirin əhəmiyyətini daha da artırır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov “Naxçıvan – bəşəriyyətin beşiyi” IV Beynəlxalq Rəsm Festivalının rəssamlar üçün əhəmiyyətli olacağını bildirmiş, iştirakçılara uğurlar arzulamışdır.



Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov muxtar respublikanın ötən illər ərzində çox böyük inkişaf yolu keçdiyini, müasirliyi ilə gözoxşayan Naxçıvan şəhərinin yenidən quruldüğunu, qədim diyarda rəssamların fəaliyyəti üçün hər cür şərait yaradıldığını vurğulamışdır. “Naxçıvan – bəşəriyyətin beşiyi” IV Beynəlxalq Rəsm Festivalının keçirilməsinin muxtar respublika üçün mühüm mədəni hadisə olduğunu deyən Fərhad Xəlilov yaradılan şəraitə görə festival iştirakçıları adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirmişdir.

Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natavan Qədimova bildirmişdir ki, muxtar respublikada milli-mənəvi dəyərlərə hörmətlə yanaşılır, dini dəyərlər və adət-ənənələr qorunub saxlanılır. Bütün bunların nəticəsidir ki, Naxçıvan şəhəri 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilmişdir. Bununla yanaşı, Naxçıvan şəhəri həm də 2018-ci il üçün ölkəmizin Gənclər Paytaxtıdır. Belə bir əlamətdar ildə Naxçıvan şəhərində ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş “Naxçıvan – bəşəriyyətin beşiyi” IV Beynəlxalq Rəsm Festivalının keçirilməsi qədim diyarımızın zəngin tarixi və bu günü ilə səsləşən mühüm mədəniyyət tədbiridir.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxışında bildirmişdir ki, bu gün təsviri sənətin inkişafı sahəsində muxtar respublikada ardıcıl tədbirlər görülür, gənc rəssamların formalaşması, rəssamlıq sənətinin tədrisi üçün hərtərəfli şərait yaradılır, fırça ustalarının yaradıcılıq imkanları artırılır. Rəssamların fərdi sərgilərinin təşkil edilməsi, Azərbaycan boyakarlıq sənətinin klassik və müasir nümayəndələrinin albom-kataloqlarının hazırlanıb nəşr etdirilməsi gənc rəssamların yaradıcılıq axtarışlarının artmasına mühüm töhfə verir. Yaradılan şərait rəssamların yaradıcılıq imkanlarının daha da genişlənməsinə səbəb olmuş, naxçıvanlı rəssamların dünyanın bir çox ölkələrində sərgiləri açılmış, onlar beynəlxalq festival və müsabiqələrdə iştirak etmişlər.

Qeyd olunmuşdur ki, bu gün qədim Naxçıvan böyük quruculuq meydanına çevrilib. Həyata keçirilən quruculuq nümunələri gələcək üçün böyük tarixdir. Bu tarix təkcə mütəxəssis tədqiqatlarının deyil, eləcə də yaradıcı insanların əsərlərində də gələcək nəsillərə çatdırılmalıdır. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş “Naxçıvan – bəşəriyyətin beşiyi” IV Beynəlxalq Rəsm Festivalının keçirilməsi də bu məqsədə xidmət edir.

Tədbirin bədii hissəsində Qədim Musiqi Alətləri Ansamblının, Naxçıvan Dövlət Filarmoniyasının rəqs qrupunun, Naxçıvan Muxtar Respublikası Aşıqlar Birliyinin üzvlərinin və Şərur Xalq Yallı Ansamblının çıxışları olmuşdur.

Sonra festivalın yaradıcılıq hissəsinə başlanılmışdır. Tədbirin gedişində iştirakçılara səyyar iaşə xidməti göstərilmişdir.

Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin, Naxçıvan Müəllimlər İnstitutunun Təsviri incəsənət müəllimliyi ixtisasının müəllim və tələbələri, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin rəsm dərnəyinin üzvləri, Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq məktəbinin şagirdləri tanınmış rəssamların iş proseslərini izləmişlər.

Qeyd edək ki, mayın 24-də Bəhruz Kəngərli adına Sərgi Salonunda festivalda çəkilmiş əsərlərdən ibarət sərgi təşkil ediləcəkdir.

**Səbuhi HƏSƏNOV**

# Məzun günü keçirilib



*Naxçıvan Dövlət Universitetində məzun gününə həsr olunmuş təntənəli mərasim keçirilib.*

Tədbirdə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov çıxış edərək məzun adı qazanan magistr və tələbələri, onların üzərində böyük əməyi olan valideyn və müəllimləri təbrik edib, məzunlara gələcək fəaliyyətlərində təhsil aldıqları ali məktəbin adını daim uca tutmağı və müstəqil ölkəmizin tərəqqisinə layiqli töhfələr verməyi arzulayıb. Rektor Azərbaycanda elm və təhsilin inkişafından, muxtar respublikada kadr potensialının gücləndirilməsinə göstərilən dövlət qayğısından, bir çox beynəlxalq layihələrdə uğurla iştirak edən, əməkdaşlıq əlaqələri ildən-ilə güclənən universitetin timsalında müasir ali təhsil müəssisəsi modeli yaradılmasından danışıb. Qeyd olunub ki, 2017-2018-ci tədris ilində universitetdə bakalavr üzrə 1155, magistratura üzrə isə 100 nəfər ali təhsilini başa vurur.

Məzun günündə universitetdə keçirilən viktorina və yarışların qalibi olmuş tələbələr diplomlarla təltif edilib.

Tədbirdə Tələbə Teatr Studiyasının yeni yaratdığı “Azərbaycan-Türkiyə” rəqs qrupunun ifasında qardaş ölkə ilə dostluğumuzu ifadə edən rəqs nümunəsi, türk rəqsi olan “Zeybək” də oynanılıb. Qeyd edək ki, rəqs qrupunun bədii rəhbəri İncəsənət fakültəsinin Musiqi müəllimliyi ixtisası üzrə I kurs tələbəsi Emre Erikdir.

Məzun günü İncəsənət fakültəsinin Xalq çalğı alətləri kafedrasının “Buta” instrumental ansamblının müşayiət etdiyi konsert proqramı ilə davam edib. Bir-birindən maraqlı mahnı və rəqslər tədbiri daha da rəngarəng edib.

Sonda məzun tələbələrlə xatirə şəkli çəkdirilib.

**Səadət ƏLİYEVA**

# “Açıq qapı” günləri ilin sonunadək davam etdiriləcək



Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulunun vəziyyəti və qarşıda duran vəzifələr” barədə 2017-ci il oktyabrın 16-da keçirilən müşavirədə Ali Məclis Sədrinin verdiyi tapşırığa əsasən cari tədris ilində Təhsil Nazirliyi tərəfindən ümumtəhsil məktəblərinin buraxılış siniflərində təhsil alan və qəbul imtahanlarında yaxşı nəticə göstərən şagirdlərin ali və orta ixtisas təhsili müəssisələri ilə tanışlığını təmin etmək məqsədilə “açıq qapı” günləri təşkil edilir.

Qrafikə əsasən Naxçıvan şəhər ümumtəhsil məktəblərindən sonra Şərur və Babək rayonunun ümumtəhsil məktəblərinin şagirdləri muxtar respublikanın ali təhsil müəssisələrində olublar. Şagirdlərə həmin təhsil müəssisələrində yaradılan şərait, tədris prosesi barədə məlumat verilib. Gələcəkdə təhsil alacaqları bu ali təhsil müəssisələrində yaradılmış şəraitlə tanışlıq şagirdlərin düzgün ixtisas seçiminə kömək edəcəkdir.

Qeyd edək ki, tədris ilinin sonunadək muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələri ilə tanışlığı davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

*Mədəni və yabanı dərman bitkilərinin toplanması, qurudulması və tədarükü qaydaları ilə bağlı maarifləndirici tədbiri Babək Rayon İcra Hakimiyyəti başçısının müavini Nihal Məmmədov açıb.*

# Ailə təsərrüfatı sahibləri ilə görüş



AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun əməkdaşı Əliyar İbrahimov bildirib ki, muxtar respublikada 3050-dən artıq bitki növü var. Bunlardan 800 növə yaxını müxtəlif xəstəliklərin müalicəsində istifadə edilən qiymətli dərman bitkiləridir. Məruzəçi rayonda yayılan dərman bitkilərinin növləri, farmakoloji xüsusiyyəti haqqında ətraflı məlumat verib. Qeyd olunub ki, elə dərman bitkiləri var ki, təsiredici maddə bitkinin kökündə, çiçəyində və yaxud gövdəsində olur. Ona görə də toplanmazdan əvvəl mütləq bu bitkilər haqqında məlumatlı olmaq lazımdır. Bunun üçün institut tərəfindən Naxçıvanda olan dərman bitkiləri haqqında kitab nəşr olunub və hər bir təsərrüfat sahibi bu kitabdan faydalana bilər.

Əliyar İbrahimov toxumla artan dərman bitkiləri haqqında da məlumat verərək diqqətə çatdırıb ki, bu bitkilər toplanarkən onların 10-12 faizi mütləq saxlanılmalıdır ki, həmin bitkilərin kökü kəsilməsin.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin şöbə müdiri Əli Şərifov dərman bitkilərinin toplanılması və paketlənməsinin əhəmiyyətindən danışaraq bildirib ki, təsərrüfat sahibləri bu bitkiləri toplayıb qablaşdırmaqla yaxşı qazanc əldə edə bilərlər.

Qeyd olunub ki, ailə təsərrüfatlarının topladığı dərman bitkilərinin etiketləşdirilməsi və qablaşdırılması bu məhsulların Naxçıvan bazarı ilə yanaşı, Bakı şəhərinə, həmçinin xarici ölkələrə ixdal imkanlarını genişləndirir. Bu dərmanların etiketləşdirilməsində də agentlik təsərrüfat sahiblərinə hər cür köməklik göstərə bilər. Belə ki, agentliyə müraciət edən hər bir ailə təsərrüfatı sahibinə etiketlərin hazırlanması ödənişsiz həyata keçirilər.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin şöbə müdiri Elnur Mahmudov Naxçıvan Biznes Mərkəzində ailə təsərrüfatları ilə bağlı ayrıca guşə yaradıldığını bildirib. Həmçinin Naxçıvan şəhərində ailə təsərrüfatı məhsullarının qablaşdırılması üçün tara mağazası fəaliyyətə başlayıb ki, bu mağazadan da qablaşdırma üçün sifarişlər verilə bilər.

Tədbirdə təsərrüfat sahiblərini maraqlandıran suallar cavablandırılıb, onlara dərman bitkilərinin toplanması, qurudulması qaydaları ilə bağlı bukletlər paylanılıb.

**Xəbərlər şöbəsi**

Səhiyyə müəssisələrimiz

## Stomatoloji Mərkəzdə müasir profilaktika, diaqnostika və müalicə üsullarının tətbiqi üçün hərtərəfli şərait yaradılıb

***Ötən il muxtar respublikanın səhiyyə sistemində aparılan islahatlara uyğun olaraq publik hüquqi şəxs statusunda fəaliyyət göstərən 3 səhiyyə müəssisəsinin təşkil edilməsi, cari ilin əvvəlindən həmin səhiyyə ocaqlarında yeni qaydaların tətbiqinə başlanılması bu sahənin inkişafı istiqamətində görülən uğurlu və əhəmiyyətli tədbirlərdəndir. Bu günlərdə həmin müəssisələrdən birində – Stomatoloji Mərkəzdə olub işlərin gedişi ilə maraqlandıq. Əvvəlcə onu deyək ki, ötən dövr ərzində müəssisənin kollektivi ixtisaslı tibbi kadrlarla möhkəmləndirilib, 2012-ci ildən bu mərkəzdə işləyən stomatoloq Azər Həsənov baş həkim təyin edilib. Onun rəhbərliyi ilə cari ildə görülən işlər barədə müsahibəni oxuculara təqdim edirik.***





***– Azər həkim, əvvəlcə müəssisədə aparılan islahatlar barədə məlumat verməyinizi xahiş edirəm.***

– Öncə onu bildirim ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 3 oktyabr tarixli Sərəncamı ilə Stomatoloji Mərkəzə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusu verilmiş, yenidən təşkil edilmişdir. Müəssisənin nizamnaməsi təsdiq olunmuş, mərkəzin istifadəsində olan əmlak və avadanlıqlar publik hüquqi şəxsin balansına verilmişdir. Mərkəzin saxlanılma xərcləri tibbi xidmətlərdən əldə olunan, könüllü və icbari tibbi sığorta sistemindən daxil olan vəsaitlər, hüquqi və fiziki şəxslərin gəlirlərindən könüllü ayırmalar və qanunvericilikdə nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir. Fəaliyyətimizin əsas məqsədi muxtar respublikada stomatoloji tibbi xidmətin göstərilməsi, eləcə də bu sahədə praktik biliklərə yiyələnmənin təmin edilməsidir.

***– Yeni idarəetmə mexanizmi özlüyündə həm də möhkəm maddi-texniki baza tələb edir.***

– Elədir. Hazırda Naxçıvan Muxtar Respublikası "Stomatoloji Mərkəz" publik hüquqi şəxsi Kəngərli küçəsində yerləşən Zərifə xanım Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasının binasının 5-6-cı mərtəbələrində yerləşir. Mərkəz müasir tibbi avadanlıqlarla təchiz olunmuş və 2012-ci ilin iyul ayından etibarən fəaliyyətə başlamışdır. 5- ci mərtəbə cərrahiyyə, terapevtik və tədris, 6-cı mərtəbə isə rentgenoloji müayinə, ortopedik kabinə və texniki laboratoriya bölmələri üçün nəzərdə tutulmuşdur. Burada, həmçinin mikroskop, zoom, elexsion lazer və digər aparatlar mövcuddur.

Mərkəzdə istifadə olunan tibbi alətlərin sterilizasiyası dəqiqliklə həyata keçirilir. Bunun üçün sterilizasiya otağında nüvə istilik sterilizatoru, buxarlı avtoklavlar, paketləmə aparatından istifadə olunur. Sterilizasiya əməliyyatı təmizləmə, qablaşdırma, yığma və paylama mərhələlərini əhatə edir. Mərkəzimizdə, həmçinin vizioqraf, apikal və panaram rentgen müayinələri aparılır.

Lazer aparatı ilə diş ətinin iltihabı, şəkərli diabet xəstələrində sağalmayan ağız yaralarının müalicəsində, diş ətlərinin estetik bərpasında tam ağrısız və qansız funksiyalar yerinə yetirilir. Zoom aparatı isə tam ağrısız dişlərin ağardılmasına xidmət edən müasirtipli tibbi avadanlıqdır. Digər cihaz dişin kök kanallarının tam açılmasında, həmçinin iltihablı kanalların genişləndirilməsində və müalicə edilməsində istifadə olunur. Eyni zamanda lokator aparatı vasitəsilə kanal uzunluğunun tam, dəqiq ölçülməsi həyata keçirilir. Mərkəzdə 8 həkim və 10 tibb işçisi fəaliyyət göstərir.

***– Stomatoloji Mərkəzdə əhaliyə yüksək tibbi xidmətin təşkili məqsədilə hansı prioritet vəzifələr həyata keçirilir?***

– Fəaliyyət istiqamətimiz çoxşaxəlidir. Ağız boşluğunda və dişlərdə müayinə, terapevtik və cərrahi müalicələr aparmaq, müasir profilaktika, diaqnostika və müalicə üsullarının təcrübədə tətbiqi həmin vəzifələrin əsas hissəsidir. Bununla yanaşı, tibbi fəaliyyətin təşkilati forma və üsulları inkişaf etdirilir və təkmilləşdirilir. Pasiyentlərə ilkin tibbi-sanitariya yardımı göstərilir. Səhiyyədə tətbiq edilən profilaktika, diaqnostika və müalicə üsullarından, tibbi texnologiyalardan, dərman və dezinfeksiya vasitələrindən təlimata uyğun istifadə olunur. Tibbi personal tərəfindən dərman və dezinfeksiya vasitələri təyinatı üzrə işlədilir, onların saxlanılması şəraiti və yararlılıq müddəti nəzarətdə saxlanılır. Bundan başqa, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi və Naxçıvan Tibb Kolleci tələbələrinin ortopedik, ortodontik, terapevtik, cərrahi sahələrdə praktik biliklərə yiyələnmələri təmin edilir.

***– Azər həkim, insan sağlamlığında dişlərin rolu barədə də istərdim oxucularımıza məlumat verəsiniz.***

– Sağlam qidalanma dişlərin və ağız boşluğunun digər orqanlarının sağlamlığı ilə birbaşa əlaqəli olsa da, çox təəssüf ki, əksər hallarda dişlərimizin nə qədər əhəmiyyətli olduğunu ancaq bununla bağlı problemlər yaşadıqda və ya onları itirməklə üz-üzə qaldığımızda daha yaxşı anlayırıq.

Həyatımızın müxtəlif vaxtlarında qarşılaşdığımız diş itkiləri bir çox fizioloji funksiyalarımızı ləngidir. Fiziki və ruhi sağlamlığımıza əhəmiyyətli dərəcədə mənfi təsir edən, estetik görünüşümüzü də pozan ciddi problemlərə gətirib çıxarır. "Dişin ağrıyır, çək qurtar" kimi el deyimi yalnız acı təəssüf doğurur. Müasir tibb dişlərimizin qorunması üçün bizlərə əhəmiyyətli imkanlar təqdim edir. Hazırda bizim mərkəzdə müasir stomatologiyanın mühüm sahələrini əhatə edən ixtisaslaşdırılmış və yüksəkkeyfiyyətli stomatoloji yardım göstərilir: diş əti xəstəliklərinin müayinə və müalicələri aparılır, plomb (sadə, kimyəvi lazer, estetik), estetik restavrasiyalar (diş daşlarının təmizlənməsi), ortopedik işlər, çəkilişlər (əməliyyatla çəkiliş), keramik dişlərin qoyulması (zirkon, vita) və digər tibbi xidmətlər icra edilir. Həmçinin mərkəzimizdə hər ayın sonuncu həftəsi implant əməliyyatı aparılır.

Son vaxtlar dəbdə və ən çox tələbat olan estetik stomatoloji prosedurlardan dişlərin kimyəvi ağardılması səmərəli, təhlükəsiz və asan üsulla həyata keçirilir. Xidmətləri göstərərkən xəstələrlə səmimi, gülərüz və dürüst davranaraq səmimi ünsiyyət yaradırıq. Keyfiyyətli müalicə prosesi ilə pasiyenti qane edəcək nəticənin əldə olunması çox vacibdir, məhz bu cür yanaşma bizə müraciət edən insanların sevgisini qazanmağımızı mümkün edir. Biz optimal qiymətlərlə yüksək stabil keyfiyyət təklif edirik. Mərkəzin tibbi personalı buraya üz tutanları daim gülərüz qarşılamağa və əhatəli yardım göstərməyə hazırdır. Kollektivimizin məqsədi pasiyentlərimizə sağlam dişlər, məmnunluq ifadə edən təbəssüm bəxş etməkdir.

***– Müsahibə üçün sağ olun!***

**Hüseyn ƏSGƏROV**
***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi***

## İntellektual oyunlar olimpiadası başa çatıb

***Naxçıvan şəhərinin 2018-ci il üçün Gənclər Paytaxtı seçilməsi ilə əlaqədar hazırlanmış tədbirlər planının müvafiq bəndinə əsasən gənclər arasında intellektual oyunlar olimpiadasının Naxçıvan Muxtar Respublika birinciliyi keçirilib.***

Olimpiada çərçivəsində 4 intellektual oyun – "Nuh yurdu", "Kim? Nə? Hara?", "Vətəni tanı", "Axtar tap" intellektual oyunları üzrə vahid turnir şəklində təşkil olunub.

"Kim? Nə? Hara?" intellektual oyununda ilk üç pillədə Naxçıvan şəhərinin, Sədərək və Ordubad rayonlarının təmsilçiləri Tural Məmmədzadə, Bulud Bağırlı və Anar Həsənli qərarlaşıblar.

"Vətəni tanı" intellektual oyununda isə qalib adını Şahbuz rayonunun "Batabat" komandası qazanıb. Naxçıvan şəhərinin "İstiqlal" komandası ikinci, Culfa rayonunun "Əlincə" komandası üçüncü olublar.

"Nuh Yurdu" intellektual oyununda Babək rayonunun "Turan" komandası bütün rəqiblərini qabaqlayıb. Digər iki pillədə isə Naxçıvan şəhərinin "Şahin" və Kəngərli rayonunun "Mübariz" komandaları qərarlaşıblar.

"Axtar tap" intellektual oyununda Şərur rayonunun "Arpaçay" komandası birinci, Naxçıvan şəhərinin "İdeal" komandası ikinci, Kəngərli rayonunun "Kürşad" komandası isə üçüncü yerlərə layiq görülüblər.

Sonda qaliblər kubok, diplom, fəxri fərman və oxunması zəruri olan kitablarla təltif ediliblər.

**C. MƏMMƏDOV**

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Paralimpiya Federasiyasının birgə təşkil etdiyi ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunan 18 yaşadək sağlamlıq imkanları məhdud uşaqlar arasında əyləncəli idman oyunlarına yekun vurulub.***

## Əyləncəli idman oyunlarına yekun vurulub



Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən turnirdə "Nuhçıxan", "Arpaçay", "Babək", "Qapıcıq", "Əlincə", "Batabat", "Kəngərli" və "Qaraağac" olmaqla, ümumilikdə, 8 komanda mübarizə aparıb.

Turnirin açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası gənclər və idman naziri Azad Cabbarov bildirib ki, ümummilli lider Heydər Əliyev ölkə rəhbəri olduğu ilk dövrdən gənclərin himayədarı kimi sağlamdüşüncəli yeni nəslin yetişdirilməsini dövlət və cəmiyyətin mühüm vəzifəsi hesab edib, respublikanın sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında gənclərin iştirakının təmin olunmasını vacib məsələlərdən biri kimi hər zaman diqqətdə saxlayıb. Muxtar respublikada da gənclərlə idman sahəsində mühüm işlər görülüb. Belə ki, son illər ərzində Naxçıvanda idman infrastrukturunun yenidən qurulması, yeni idman obyektlərinin, olimpiya-idman komplekslərinin inşası bu sahənin inkişafına möhkəm təməl yaradıb. Müasir idman infrastrukturu, öz növbəsində, Naxçıvanın müxtəlif beynəlxalq yarışlara ev sahibliyi etməsi üçün geniş imkanlar açıb. Nazir çıxışının sonunda idman tədbiri münasibətilə iştirakçıları təbrik edib, gələcək fəaliyyətlərində onlara uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının sədri Cavid Səfərov isə çıxışında vurğulayıb ki, muxtar respublikada idmanın inkişafının maddi-texniki bazasının möhkəmləndirilməsi məhdud fiziki imkanlı şəxslərin reabilitasiyası, onların cəmiyyətə inteqrasiyası baxımından da mühüm əhəmiyyət daşıyır. Sağlamlıq imkanları məhdud şəxslərin idmana inteqrasiyasını sürətləndirmək məqsədilə müxtəlif idman qrupları, o cümlədən qolbol idman növü üzrə komanda, sağlamlıq imkanları məhdud qızlardan ibarət bədii gimnastika, uşaqlardan ibarət boccia, təzgüçülük və stolüstü tennis bölmələri yaradılıb. Muxtar respublikada idmana göstərilən yüksək diqqət və qayğının nəticəsidir ki, hər il burada müxtəlif beynəlxalq səviyyəli idman festivallarının və yarışların keçirilməsi ənənə halını alıb. Ölkəmizdə ilk dəfə məhz Naxçıvanda xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr edilən Paralimpiya İdman festivallarının, Qolbol üzrə beynəlxalq turnirin keçirilməsi müvafiq kateqoriyadan olan şəxslərə göstərilən dövlət qayğısının bariz ifadəsidir.

Bədii hissədə Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin "Əlvan çiçəklər" rəqs qrupunun ifaları tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Turnirin yekun nəticəsinə gəlincə, müəyyən edilmiş manеələri daha dəqiq və düzgün yerinə yetirən "Arpaçay" komandası qalib adını qazanıb. "Nuhçıxan" komandası ikinci, "Babək" komandası isə üçüncü olub.

Sonda qalib komandalar və digər iştirakçılar mükafatlandırılıblar.

**Ceyhun MƏMMƏDOV**

## Muxtar respublika turnirinin qalibləri məlum olub



***Naxçıvan Muxtar Respublikası ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunan süni divaradırmanma idman növü üzrə muxtar respublika turniri keçirilib.***

Birinciliyin açılış mərasimində çıxış edən muxtar respublikanın gənclər və idman naziri Azad Cabbarov, Hava və Ekstremal İdman Növləri Federasiyasının sədri Hafiz Yaqubov bildiriblər ki, son illər muxtar respublikanın şəhər və rayonlarında olimpiya-idman komplekslərinin, idman mərkəzlərinin, uşaq-gənclər idman və şahmat məktəblərinin, orta məktəblərdə idman zallarının və açıq idman qurğularının istifadəyə verilməsi gənc nəslin fiziki sağlamlığının qorunması və bədən tərbiyəsinin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Bütün bu imkanlardan istifadə edən gənclərimiz idman sahəsində də uğurlar qazanır, muxtar respublikanı Azərbaycan və dünya miqyasında keçirilən idman yarışlarında və çempionatlarda layiqincə təmsil edirlər.

60-a yaxın idmançının iştirak etdiyi birincilik gərgin idman mübarizəsi şəraitində keçirilib. Oğlanlardan Cavid Qasımov turnirin qalibi olub. Digər iki pillədə Xızır İsmayılov və Coşqun Əliyev qərarlaşıblar.

Qızların mübarizəsində isə Fizzə Tağıyeva bütün rəqiblərini qabaqlayıb. İlkanə Babayeva ikinci, Cansu Abbasova isə üçüncü olublar.

Sonda qaliblər mükafatlandırılıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Elan

Naxçıvan Dövlət Universiteti 2017-2018-ci tədris ilinin yaz imtahan sessiyası ilə əlaqədar qiyabiçi tələbələrin nəzərinə çatdırır:

1. Universitetin qiyabi şöbəsinin bütün ixtisaslarında (əlavə ali təhsil də daxil olmaqla) yaz imtahan sessiyası 1 iyun 2018-ci il tarixdən başlayır və 20 iş günü davam edir

2. Bütün qiyabiçi tələbələrin sessiyada iştirakı zəruridir.

***Rektorluq***

## Bildiriş

Babək "Şərab 2 Yeddilər ASK" Məhdud Məsuliyyətli Cəmiyyətinin hüquqi adı dəyişdirilərək "Naxçıvan Şərab" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilmişdir.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Mətanət Məmmədova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 381